# Online Training Program

# 2-ci hissə

Proqram sosial hüquqlara dair maarifləndirici sual-cavablardan ibarətdir

## Sosial hüquqlar ilə bağlı hansı beynəlxalq müdafiə mexanizmlərinə fərdi müraciət edə bilərik?

- Sosial hüquqlar ilə bağlı aşağıdakı beynəlxalq müdafiə mexanizmlərinə müraciət edilə bilər:

- Avropa İnsan Hüquqları Məhkəməsi
- BMT-nin Əliliyi olan şəxslərin hüquqlarına dair Komitəsi
- BMT-nin İqtisadi, Sosial və Mədəni hüquqlara dair Komitəsi

*Qeyd: Sonuncu Komitəyə şikayəti üçün Protokol Azərbaycan hökuməti tərəfindən imzalanıb lakin hələ ratifikasiya edilməyib*

## BMT-nin hansı qurumuna sosial hüquqlar ilə bağlı şikayət etmək olar?

- BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsinə müraciət edilə bilər. Şikayət verməmişdən əvvəl Azərbaycanda bütün məhkəmə instansiyaları keçilməlidir

## BMT-yə şikayət etmək üçün sənədləri hansı ünvana göndərə bilərik?

- Şikayət forması digər sənədlər ilə birlikdə aşağıdakı ünvana göndərilir:

**Postal address:**
Office of the United Nations High Commissioner for Human Rights (OHCHR)
Palais des Nations
CH-1211 Geneva 10, Switzerland

## İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Konvensiya Azərbaycan tərəfindən ratifikasiya edilib?

- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Konvensiya 13 avqust 1992-ci ildə Mülki və Siyasi Hüquqlar haqqında Konvensiya ilə birlikdə Azərbaycan hökuməti tərəfindən ratfikasiya edilmişdir

## İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Konvensiyanın mətni ilə haradan tanış ola bilərik?

- Konvensiyanın elektron versiyası «Hüquq və İnkişaf» İctimai Birliyinin veb səhifəsindəki Sosial Qanunvericilik bölməsində tanış ola bilərsiniz:

Link: http://law.org.az/wp-content/uploads/2017/12/%C4%B0qtisadi-Sosial-v%C9%99-M%C9%99d%C9%99ni-H%C3%BCquqlar-haqq%C4%B1nda-Beyn%C9%99lxalq-Konvensiya.pdf

## Əliliyi olan şəxslər hansı BMT-in hansı Komitəsinə müraciət edilər?

- Əliliyi olan şəxslər hüquq və azadlıqları ilə Əliliyi olan şəxslərin hüquqlarında dair Komitəyə fərdi şikayət edə bilərlər.

- Sənədlər aşağıdakı ünvana göndərilməlidir:

Office of the High Commissioner for Human Rights
United Nations Office at Geneva
1211 Geneva 10 (Switzerland)

Fax: + 41 22 917 9022 (particularly for urgent matters)
E-mail: petitions@ohchr.org

# Əliliyi olan şəxslərin hüquqlarına dair Konvensiya hansı hüquqları qoruyur?

- Əliliyi olan şəxslərin hüquqlarına dair Konvensiyanın 10-cu maddəsindən 30-cu maddəsinədək olan hissəsi Əliliyi olan şəxslərin müxtəlif siyasi, iqtisadi, sosial və mədəni hüquqlarına (yaşamaq hüququ; qanun qarşısında bərabərlik; azad və təhlükəsizlik yaşamaq hüququ; şəxsi və ailə həyatına hörmət; təhsil, səhiyyə, siyasi, ictimai və mədəni həyatda iştirak və.s) təminat verir

## Əliliyi olan şəxslərin hüquqlarına dair Konvensiya Azərbaycan tərəfindən nə vaxt ratifikasiya edilib?

- Əliliyi olan şəxslərin hüquqlarına dair Konvensiya və onda Əlavə Protokol 09 yanvar 2008-ci ildə imzalanmış və 28 yanvar 2009-cu ildə ratifikasiya edilmişdir.
- Qeyd edək ki, Əliliyi olan şəxslərin hüquqlarına dair Konvensiya BMT-nin yaxın zamanlarda qəbul etdiyi Konvensiyadır. Əliliyi olan şəxslərin hüquqlarına dair Konvensiya BMT tərəfindən 13 dekabr 2006-cı qəbul edilmişdir

Hər hansı idrad, təklif və tövsiyyələriniz varsa, himerkez@yahoo.com və office@law.org.az emailinə yazmağınız xahiş olunur